# Hər mənada lider şirkət

## Qətər Hava Yolları aviasiya sənayesində öz möhtəşəmliyi ilə seçilir






**Təyyarənin pilləkəninə ayaq qoyar-qoymaz gülərüz, mehriban, zoğalı rəngli forma geyinən qız və oğlanların "Qətər Hava Yollarına xoş gəlmisiniz" sözlərini eşidirsən. Bələdçilərin son dərəcə nəzakətli davranışının müşayiəti ilə "biznes-klass" salonunda yerini rahatlayan kimi "Hansı içkidən içmək istəyirsiniz?" sualı eşidilir. Sərnişinlərə alkoqollu və alkoqolsuz içkilər təklif olunur. Menyudakı yemək çeşidləri də ləzzətliliyi ilə fərqlənir.**

Rahat, açılıb-yığılan və çarpayı halına gələn oturacaqlar üzərində sərnişinləri balınclar, örtüklər, qulaqcıqlar da gözləyir. Bakıdan Dohaya və digər ölkələrə uçuşlarda sərnişinlər hər gün bu cür yüksək xidmətlə qarşılaşırlar. "ORYX One" sisteminin tətbiq edildiyi salonda sərnişinlər üçün 2000 mindən çox maraqlı əyləncə seçimi mövcuddur. Belə ki, uzaq və ya yaxın məsafələrdə hər sərnişin qarşısında quraşdırılan monitorda ən son istehsal edilən filmlər, proqramlar və oyunlarla rahatlığını təmin edə bilər. Əlavə ödəniş etməklə təyyarənin salonunda internet xidmətindən də istifadə etmək mümkündür. Eləcə də "ekonom-klass"da oturan sərnişinlər getdikləri istiqamətdə səviyyəli xidmətlə müşayiət olunurlar. Qətər Hava Yollarının Vyetnam Milli Turizm Administrasiyası ilə birgə jurnalistlər üçün təşkil etdiyi media-tur çərçivəsində bir qrup media işçisi bu möhtəşəmliyin iştirakçısı oldular.

### AVROPA İLƏ ASİYA ARASINDA KÖRPÜ

Qətərin 5 ulduzlu milli hava yolları şirkətinin tarixinə nəzər salanda çox da uzağa getməyən bu illər ərzində qazanılan uğurlara heyrət etməyə bilmirsən. 22 noyabr 1993-cü ildə yaradılsa da, ilk uçuşunu 1 il sonra Küveyt Hava Yollarından icarəyə götürdüyü Boeing 767-200ER təyyarəsi ilə başlayan və o vaxtlar az sayda marşrutlar üzrə xidmət göstərən kiçik regional daşıma şirkəti ölkə rəhbəri Şeyx Hamad bin Xalifa Al Taninin himayəsi altında yaranıb. Şeyx Qətər Hava Yollarının aparıcı beynəlxalq hava yolları şirkətinə çevrilməsi konsepsiyasını irəli sürərək tədricən böyük uğurlara imza atıb. O vaxtdan bəri Qətər Hava Yolları ("Qatar Airways") aviasiya sənayesi üzrə dünyanın ən yüksək sürətlə böyüyən nəqliyyat şirkətlərindən birinə çevrilib. 50 faizi dövlətə, digər 50 faizi isə özəl sektora məxsus olan şirkət 1996-cı ildə Baş icraçı direktor təyin edilən və Qətər Hava Yollarının dünyanın ən yaxşı nəqliyyat şirkətinə çevrilməsinə kömək edən Əkbər Əl-Bakerin rəhbərliyi altında inkişaf edib.

Bu gün ən yüksək xidmət və təkmilləşmə standartlarına uyğun olaraq Qətər Hava Yolları mərkəzi ofisi ölkənin paytaxtı Dohada olmaqla 150-dən çox təyinat məntəqəsindən ibarət olan və Avropa, Yaxın Şərq, Afrika, Cənubi Asiya, Asiya-Sakit okean, Şimali Amerika və Cənubi Amerikanı əhatə edən uçuşları həyata keçirir. Qətər Hava Yolları Şirkəti 100-dən çox sərnişin və yük təyyarəsindən ibarət nəqliyyat parkına malik olan dünya miqyaslı şəbəkə yaradıb.

2012-ci il fevral ayının 1-dən "Qatar Airways" Bakıya uçuşlarını həyata keçirməyə başlayıb. Dünyanın 150 istiqamətinə uçan şirkət üçün Bakı 111-ci uçuş istiqaməti olub. Qətər Hava Yollarının icraçı direktoru Əkbər Əl-Baker həmin ilin şirkət üçün qlobal genişləndirmə ili olduğunu bildirərək Azərbaycanın həmin proqram çərçivəsində üz tutduqları ilk ölkə olduğunu bildirib: "Doha-Bakı aviareysi hər iki ölkənin işgüzar dairələri tərəfindən səbirsizliklə gözlənilirdi". Əkbər Əl-Baker Azərbaycanın zəngin enerji resursları və sürətlə inkişaf edən turizm sektorunun Qətər Hava Yolları Şirkətinin Bakıya uçuşlar təşkil edilməsi qərarının verilməsində mühüm əhəmiyyət kəsb etdiyini də bildirib: "Azərbaycan tək neftinə görə yox, güclü potensialı, zəngin enerji resurslarına malik, böyük biznes imkanları təklif edən bir ölkə kimi bizim üçün cəlbedicidir. Bu, ölkəni həm də turizm üçün maraqlı bir məkana çevirir. Biz bir çox ölkələrin şəhərlərindən insanları Bakıya gətirib Azərbaycanın gözəlliyini onlara nümayiş etdirmək istəyirik". Azərbaycana xidmət edən yeganə 5 ulduzlu hava yolları şirkəti olmaqdan qürur duyduqlarını bildirən Əkbər Əl-Baker iddialı şirkət olduğuna güvənərək Bakıya uçan şirkətlər arasında Qətər Hava Yollarının ən yüksək xidmət təklif edəcəyinə söz verib: "Düzdür, qiymətlərimiz ucuz deyil, amma təklif etdiyimiz xidmət də yüksək səviyyəlidir. Ümid edirəm ki, təyyarələrimiz dolu uçacaq, Doha-Bakı aviareysi Avropa ilə Asiya arasında körpü rolunu oynayacaq".

Bakıdan Dohaya uçuşlar həftənin bütün günləri həyata keçirilir və Tiflisə qədər davam edir. Bu baxımdan Qətər Hava Yollarını 3 ölkə arasında körpü də adlandırırlar.

Qətər dövlətinin milli aviadaşıyıcı Bakıya olan uçuşlarını Airbus-A320 təyyarələri ilə həyata keçirir, sərnişinlərə "biznes-klass" üzrə 12, "ekonom-klass" üzrə isə 132 yer təklif edir.

"Qatar Airways Group" hazırda 37 min işçiyə malikdir. Həmçinin dünyada yeganə şirkətdir ki, burada Airbus təyyarəsinin istənilən növü fəaliyyət göstərir. Qətər Hava Yollarının təyyarələr ailəsi bir neçə müxtəlif Airbus və Boeing markalı təyyarə modellərindən, o cümlədən uzaq səfərlər üçün Boeing 777 sərnişin və yük təyyarələri, Airbus A340, A330, A300, A300F markalı yük təyyarələri və A321, A320 və A319 markalı təyyarələrdən ibarətdir. 1997-ci ildə cəmi dörd təyyarə ilə fəaliyyətə başlayan bu hava yolları şirkəti öz parkının həcmini böyüdərək hazırda 160-dan çox hava gəmisini istismar edir. Çox qısa bir müddət öncə Qətər Hava Yolları Airbus şirkəti ilə birlikdə Airbus 350XWB təyyarəsini birlikdə istifadəyə verib.

Yüksək səviyyəli və keyfiyyətli xidməti "Qatar Airways"ə çoxlu mükafatlar qazandırıb. Skytrax Britaniya Agentliyinin versiyasına görə aviaşirkətlərin beş ulduzlu reytinqində yer tutan altı hava yolları şirkəti sırasında Qətər Hava Yolları Şirkətinin də adı yer alıb. Həmçinin Skytrax Ümumdünya Hava Xətti illik mükafatlandırılma mərasimində Qətər Hava Yollarını 3 nominasiya üzrə qalib elan edib. Aviaşirkət "Dünyanın Ən Yaxşı Biznes Klassı", "Dünyanın Ən Yaxşı Biznes Klass Salonu" (iki il ardıcıl olaraq) və "Yaxın Şərqdə aviaşirkətin ən yaxşı personalı" adlarına layiq görülüb. Hava Yolları Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının (BHNA) İstismar təhlükəsizliyi auditindən maksimal 100 faiz uyğunluqla keçən dünya üzrə ilk hava yolları şirkətidir və bu günə qədər iki illik yenilənmə dövrləri ərzində həmin testdən təkrarən keçib.





Dünyada ən yüksək sürətlə böyüyən hava yolları şirkətlərindən biri kimi Qətər Hava Yolları bir sıra layihələrə və tədbirlərə sponsorluğu ilə tanınır. Şirkət dünyanın ən məşhur futbol komandası "Barselona"ya, "Al Ahli Saudi Football Club"a, "Uşaq təhsili", "Qətər Beynəlxalq Ərzaq Festivalı", "Qətər- Yaponiya Dostluq Fondu", "Qətər Milli Günü", " IATA AGM", "KidZania Singapore" və s. möhtəşəm tədbir və layihələrə sponsorluq edir.

### YENİ QOVŞAQ

27 may 2014-ci il tarixində Qətər Hava Yolları rəsmi olaraq bütün reysləri özünün yeni qovşağına - texnikanın ən son nailiyyətləri ilə təchiz olunmuş Həməd Beynəlxalq Hava Limanına köçürüb. Dünya dərəcəli ultramüasir obyekt Qətər dövlətinin milli aviadaşıyıcısı üçün yeni məskən sayılır. Hava limanı nəhəngliyi və xidmətinə görə qonaqları razı salır.

İncəsənət əsərinə bənzəyən bu təyyarə qovşağını avialiman da adlandırırlar. Hava limanı haqqında dolaşan söhbətlərə istinad etsək, obyektin tikintisi üçün ərazinin böyük bir hissəsinə Fars körfəzinin sularını qurutmaqla nail olublar. İldə 50 milyondan artıq sərnişinə xidmət etmək üçün nəzərdə tutulan və 17 milyard dollar büdcəsi olan bu obyektin tikintisi 9 il davam edib. Həməd Beynəlxalq Hava Limanının meydançasının ən müasir infrastrukturu və imkanları Qətər Hava Yollarının beşulduzlu xidmətinə çox yaxşı uyğun gəlir. Həməd Beynəlxalq Hava Limanının sərnişinləri lüks mağaza və restoranlar, əyləncə mərkəzləri, konfrans zalları, tədris zalları, sauna, o cümlədən internet bağlantısı olan kompyuter guşələri, uşaq oyun meydançaları və digər saysız-hesabsız imkanlarla əhatə olunublar. Uçuşlar arasında vaxtı çox olan sərnişinlər hava limanının hotelindən də yararlana bilirlər. Ümumi dizayn da xidmətlərə qarışaraq Həməd Beynəlxalq Hava Limanından olan təəssüratları daha yaddaqalan edir. Hava Limanının mərkəzində sarı rəngli ayı balası - "Big Teddy" ərəb şahzadəsinin xanımı tərəfindən 6.8 milyon dollara alınıb. İnsanlar ağırlığı 20 ton olan ayı balasının qarşısında foto çəkdirmədən keçmirlər. "Big Teddy" bir növ Həmədin simvoluna çevrilib. Hava Limanının müştəri xidmətlərinin nümayəndəsi Roze "Big Teddy"nin dünyada cəmi 3 ədəd olduğunu, orijinalının isə ABŞ-da saxlandığını qeyd etdi. Hava Limanı haqqında məlumat verən MX nümayəndəsi noyabr ayında aeroporta 8 yeni qapı açıldığını və daha 4 qapının açılacağını bildirdi: "Bütün görülən işlər sərnişinlərin rahatlığına xidmət edir".

Saysız-hesabsız səyahət imkanına açılan beynəlxalq qapı - əhəmiyyətli biznes və mədəniyyət paytaxtı fəxrlə 2022-ci ildə FİFA Dünya Kubokuna ev sahibliyi edəcək.

**Təranə Məhərrəmova**
*Bakı-Doha*